# Dünya haqq dünyası, biz-gəldi-gedər



*Məhəbbət NİZAM*

## Əzizxan Tanrıverdiyə

İlk sazımız-sözümüz, türkümüz Qorqudundu,
Dünyaya bəyan üçün görkümüz Qorqudundu.
Türkük, Oğuz oğluyuq, kimsə danammaz bizi,
Darda güvənc yerimiz, ərkimiz Qorqudundu.
* * *
Havalanıb qopuz səsi, ud səsi,
Oğulsansa, havadaca tut səsi.
Bayram edir - Oğuz eli ayaqda,
Şərbət kimi qurtum-qurtum ud səsi.
* * *
Dədəm Qorqud - umudgahım, umudum,
Qələmim var, yox qalxanım, əmudum.
Boy boylardın, söz söylərdin olana
Öyüdünü de, mən necə unudum?!
* * *
Oğulsansa, ara, qara bul ağda,
Çən çəkildi, güldü qara bulaq da.
Dədəm Qorqud arıtmağa dilini
Bir oğul doğdurdu Qarabulaqda.
* * *
Boy oxşadı, boy boyladı Qorqudum,
«Tuman» dağda oy oyladı Qorqudum.
Min il ötə tanıtmağa soyunu,
Əzizxana sirr söylədi Qorqudum.
* * *
Dil öyrəndin, o ki, gəldin dilə sən,
Hey aradın, çalışdın ki, biləsən.
Dədəm Qorqud bir gün gəlib, duşunda
Dedi: oğul, nə istərsən dilə, sən!
* * *
Hər oğulun işi deyil söz demək,
Söz içində qor qovurub, köz yemək.
Dağlar aşıb, min illərin dalından,
Olanları düz oxumaq, düz demək.
* * *
Açdın, güldü söz dünyası Qorqudun,
Nə böyükmüş düz-dünyası Qorqudun!
Min il əzəl varmış, yenə var olar,
Ölməz, yaşar öz dünyası Qorqudun.
* * *
Araşdırdın, incələdin adları,
Doğru seçdin yaxınları, yadları.
Odda-közdə qor olunca yanıbdı,
Dədəm Qorqud aşkar görüb odları.
* * *
Bir sirri-möcüzədi, açdıqca açılır hey,
İçindən dünyaya nur saçdıqca saçılır hey.
Nə qədər Qorqudşünas, nə qədər alim olsa,
Yenə Qorqud eşiqilə uçduqca uçulur hey.
* * *
«Yalan söz olmasa yey», yalan deyil yazdığın,
Qorqudundu, özgədən qalan deyil yazdığın.
«Qara başın qurbana» döndəribsən yolunda
Açacaq gül-çiçəyin, solan deyil yazdığın.
* * *
Qorquddan yaza-yaza Qorquda döndün özün,
Qorqud tək öyüd verib, Qorqud tək dindin özün.
Yalançıqlar, Aruzlar at oynadıb gəzəndə,
Qorquda arxalanıb, Qorquda sindin özün.
* * *
Gözümüz önündə «Tuman» qalası,
Çən-çisək, qar-boran, «Duman» qalası.
Tarixdə nə qədər duman, sis görüb,
Döndü «Dmanis»ə zaman qalası.
* * *
Qorqud nişanəsidi, bir oğul Beyrəyin var,
Qorqud ürəyi kimi saf, təmiz ürəyin var.
Sənin halal zəhmətin səni saxlar ucada,
Haramlıqdan aralı, halal duz-çörəyin var.
* * *
Şamdüyədən, Şindidən təbrik gəlir adına,
Qaf dağı qüvvət verir qoluna, qanadına.
60 yaşın 100 olsun, 100-ün də dönsün 1000-ə,
Dillərdə Qorquda dön, haqq yetişsin dadına.

*Tiflis*
*26.03.2018*

### BİZİK, BİZ

Dünya yalan deyil, Şəhriyar babam,
Dünyada ən böyük yalan bizik, biz!
Dünyada nə günah, dünya neyləsin,
Onda qan-qadanı salan bizik, biz!

Yükləyib atomla tək Yerimizi,
Saymırıq çoxalan dərd-sərimizi.
Talayıb-dağıdıb bir-birimizi
Birmirik ən böyük talan bizik, biz!

Şeytan becərmişik, cin yaratmışıq,
Xainlik bəsləyib, kin yaratmışıq.
Allah - bir! Yüz donda din yaratmışıq,
Yenə əli göydə qalan bizik, biz!

Yaşaya bilmirik biz bir qaydada,
Duymuruq dünyanı yasda, vayda da.
Var-dövlət gəzərək Marsda, Ayda da,
Ondan hər gün qisas alan bizik, biz!

İlki bəlli deyil, bilinmir sonu,
Mir cürə təhükə gözləyir onu.
Yaxşıca anlayıb, bilsək də bunu
Dünyadan narazı olan bizik, biz!

Dünya - haqq dünyası, biz gəldi-gedər,
Dünyanı günahkar saymayaq hədər.
Bir belə qırğına deyən yox, - yetər!
Dağ-daşı silahla dolan bizik, biz!

Amerika bir yandan, rus da bir yandan,
Müsəlman dünyası boğulur qandan.
Erməni də çıxmır Azərbaycandan
Boş-boş xəyallara dalan bizik, biz!

Haqqı-ədaləti vermişik bada,
İnsanlıq adını salmırıq yada.
Yaxşılıq gəzmirik bu gen dünyada,
Onda yamanlıq da bulan bizik, biz!

*26 dekabr 2018-ci il,*
*Tiflis*

### YAŞADIM

Cibim boş olsa da ürəyim dolu,
Könlümü dünyaya verdim, yaşadım.
Azmadım heç zaman getdiyim yolu,
Haqqı həqiqətdə gördüm, yaşadım.

Qəlbimdə yaşadı Günəş də, Ay da,
Gördüm öz eşqimi Günəşdə, Ayda.
İtmədim heç zaman harayda, hayda,
Şeirdən bir çələng hördüm, yaşadım.

Göyçəm yada qaldı, Qarabağ yandı,
Təbriz göz önümdə tez-tez dayandı.
Dərbəndim, Borçalım dərdə boyandı
Oldu Vətən dərdi dərdim, yaşadım.

Yalançı vədələr qatdı başımı,
Yabançı gədələr atdı daşımı.
Talançı gəlmələr satdı naşımı,
Köksümü min qəmə gərdim, yaşadım.

Haramlar xor baxdı halal zəhmətə,
Haqsızlıq ucundan düşdüm möhnətə.
Sərf etdim ömrümü sözə-söhbətə,
Sözün qılığına girdim, yaşadım.

Ayrılıq sazını çaldıqca çaldım,
Həsrətdən, hicrandan ilham da aldım.
Yalan oxudular, yalana qaldım,
Yalan güllərindən dərdim, yaşadım.

Nizamam, Məhəbbət ilkin adımdı,
Məhəbbət eşqimdi, qol-qanadımdı.
«Nizamlı yaşamaq» mənim andımdı,
«Nizam! Nizam!» oldu virdim, yaşadım.

*23 dekabr 2018-ci il*

### BU EŞQ YOLDA QOYAR

Çoxalıb başımda çənim, dumanım,
Bu gündən sabaha yoxdu gümanım.
Ay məndən məhəbbət, sevgi umanım,
Bu eşq yolda qoyar, yarıtmaz bizi.

Sən hara, mən hara, yaşa baxsana,
Sinəmdə göyərməz daşa baxsana,
Ağıla, kamala, huşa baxsana,
Bu eşq yolda qoyar, yarıtmaz bizi.

Nə deyim, sev, sevmək qəbahət deyil,
Sevməyən gözəl də bir afət deyil.
İncimə, ehtiras məhəbbət deyil,
Bu eşq yolda qoyar, yarıtmaz bizi.

Keçib o dövranım, gedib o günüm,
Səni aldatmasın harayım, ünüm.
Sən hələ cavansan, başına dönüm,
Bu eşq yolda qoyar, yarıtmaz bizi.

Ağlını yollardan azana vermə,
Hər qıza bir şeir yazana vermə.
Gizlə, bu şeiri də ozana vermə,
Bu eşq yolda qoyar, yarıtmaz bizi.

*6 sentyabr 2018*

### NİZAM MÜƏLLİMƏ

Gözün yolda qalıb, qulağın səsdə,
Kim yetər hoyuna, yüz də ki, səslə.
Bu ağır yerişlə, bu təng nəfəslə
De, gedib çıxarsan haraya, Nizam?!

Alverçi deyilsən, yoxdu biznesin,
Söz də pulsuz səndən necə söz desin?
Burda qoyub hərə öz məzənnəsin,
Yalansız yol da yox saraya, Nizam!

Haqqı gəzənləri haqsız eyləyib,
Kəsdirib yolunu, qovub, teyləyib,
Uydurub mir cürə böhtan söyləyib,
Döndərirlər ağı qaraya, Nizam!

Sağdı Qaşıqçının tökən qanını,
Bax, bunlar da alar sənin canını.
Səlmanın burda da keçir qanunu,
Dünya çox hərisdi paraya, Nizam!

Haqdı gördüklərin, demə yuxudu,
Rəzilik - alçağın varı-yoxudu.
Şeir yaz, Kərimli bəlkə oxudu
Coşanda, xortdamış Daraya, Nizam!

*20.11.2018, Tiflis*

### ÜRƏYİN

Mən kitab oxudum, sən mal otardın,
Onunçün bağlanıb mala ürəyin.
Mal da olmasaydı, tamam batardın
Qalıb adamlıqdan dala ürəyin.

Məclisdə eşşəkdən, atdan danışdın,
Neyləmək, eşşəknən, atnan tanışdın.
Sözdən söz düşəndə yandın, alışdın,
Uzaqdı elmdən bala, ürəyin.

Dəmlənib, elə bil Bəhrami-gursan,
Yıxırsan dağları ayağa dursan.
Yatasan, ayılıb özünü görsən,
Görərsən çaladı, çala, ürəyin.

Aşığın sazına uzatma əlin,
Nadan nə biləcək qədrini ləlin.
Gəlibdi dalınca oğul, qız, gəlin,
Şaddımı qovğaya-qala, ürəyin?!

Enmə hər dərəyə, girmə hər kola,
Haqdan yaranmışa haqq kömək ola.
Bəlkə adam kimi düzəldin yola,
Doğra, odun kimi qala ürəyin.

Nizamam, bir sözdü, dedim, anla, qan
Qanan sayılıbdı duyub anlayan.
Haqq olsan heç olmaz səni danlayan
Çəkməz bir də nahaq nalə ürəyin.

*29 avqust 2018-ci il*

### YAZIRAM

Köhnə kişiyəm, bala,
Köhnə şeir yazıram.
Köhnə kişilər verir
Töhfə, şeir yazıram.

Sözü sıxıb əzmirəm,
Necə gəldi düzmürəm.
Mən «şöhrət»ə gəzmirəm
Növbə, şeir yazıram.

Çənim yox, dumanım yox,
Yalanım, yamanım yox.
Andım yox, amanım yox,
Tövbə, şeir yazıram.

Baxma varı-yoxuma,
Xoşun yoxsa, oxuma.
Qurub, ölən ruhuma
Növhə, şeir yazıram.

Yolmu yadın getdiyi,
Gedib, yada yetdiyi?
Mən özümün etdiyim
Səhvə şeir yazıram.

*11.10.2018*

### İSTƏMƏ

Hər yetənə könül verib, könlümü şad istəmə!
Şərəfsizin nə adı var, adsızdan ad istəmə!

Bu dünyanın qaydasıdı, acı qatar şirinə,
Şirin bir gün zəhər olar, şirindən dad istəmə!

Az yaşadım, çox yaşadın, gördüyündən gülüb yaz,
Öz şələni özün götür, yaddan imdad istəmə!

Zaman səni saldı oda Qarabağsız, Göyçəsiz,
Təbriz, Dərbənd çoxdan veran, bir də abad istəmə!

Xocalıda, Daşaltıda torpaq yenə inildər,
Mosula bax, Kərkükə bax, təzə fəryad istəmə!

Ay Məhəbbət, ürəyindən keçən nədi Sibirdə,
Heç kimsənin yurd-yuvasın vaxtsız bərbad istəmə!
1 noyabr 2016-cı il İrkutsk

